# Mirzə İbrahimov haqqında xatirə

1944-cü il idi, Böyük Vətən müharibəsinin ən qızğın dövrü. Cənubi Azərbaycanda yeni bir cəmiyyət yarandı - "Antifaşist" cəmiyyəti. Mərkəzi Təbrizdə olan bu cəmiyyətin Urmiyyə, Zəncan, Ərdəbil və Astarada da şöbələri təşkil olundu. Təbrizdə cəmiyyətin sədri şair Məhəmməd Biriya, Ərdəbildə isə mən seçildim. Təbrizdə cəmiyyətin "Yumruq" adlı qəzeti nəşr olmağa başladı. Biz də Ərdəbildə belə bir qəzet çıxarmag istədik, ancaq mümkün olmadığından mən Təbrizə getməli oldum. Təbrizdə əhəmməd Biriya və "Yumruq" qəzetinin redaktoru Mir Rəhim Vilayilə görüşüb ehtiyacımızı dedim. Vilayi bizə qəzet üçün kağız, həm də şrift verəcəyini vəd etdi. Mən Təbrizdə olmağımdan istifadə edərək "Vətən yolunda" qəzetinin redaksiyasına da getdim. Çünki 1942-ci ildən bu qəzetdə şeirlərim nəşr olunurdu. Qəzetin ilk redaktoru Mirzə İbrahimov, sonra Həsən Şahgəldiyev, daha sonra isə Rza Quliyev oldu. Redaksiya heyətinə Azərbaycanın görkəmli yazıçılarından Ənvər Məmmədxanlı, Qılman Musayev(İlkin), Əvəz Sadıq, Seyfəddin Abbasov (Dağlı), İsrafil Nəzəlli, Qulam Məmmədli və Qafarlı daxil edilmişdilər. Qəzetin redaktor müavini ədəbiyyatşünas Cəfər Xəndan idi. Görüş zamanı Cəfər Xəndan mənə dedi ki, görkəmli yazıçımız Mirzə İbrahimov Təbrizdədir, o səninlə görüşmək istəyir. Axşam saat 8-də redakiyaya gələcək, yaxşı olar ki, Ərdəbilə getməmişdən qabaq sən də gəlib onunla görüşəsən.

Mən axşam redaksiyaya gedib redaktorun otağında Mirzə müəllimlə görüşdüm. O, hərbi paltarda idi. Məni çox mehribanlıqia qarşıladı və gülə-gülə, bizdə "igidin adını eşit, üzünü görmə" - deyirlər. Məncə, düz deyil. Biz şairin şeirlərini oxumuşduq, indi də özü ilə görüşdük. Sonra mənim şeirlərim haqqında xoş sözlər dedi və onlardan bəzilərinin "Vətən yolunda"dan götürülüb Bakıda çıxan qəzetlərdə də çap olunduğunu əlavə etdi. Axırda Təbrizə nə üçün gəldiyimi soruşdu. Mən də Ərdəbildə "Yumruq" qəzeti çıxarmaq üçün bəzi ehtiyaclarımız olduğunu dedim. O, bir az fikrə gedəndən sonra:

- Olarmı iki gün Təbrizdə gözləyəsən, görək sənə nə köməklik edə bilirik? - dedi.

Razılaşdıq, mən iki gündən sonra Rza Quliyevin yanına getdim. O, mənə şad xəbər verib dedi:

- Sizin üçün kağız, şrift və bir çap maşını ayrılıb, Ərdəbilə göndəriləcək.

Biz həmin avadanlıqla Ərdəbildə "Yumruq" qəzetini 1945-ci ilin may ayına qədər çap etdik. Qələbədən sonra "Yumruq" dayandı, əvəzində Azərbaycan dilində "Cövdət" qəzeti nəşr olunmağa başladı.

Mən Mirzə müəllimi bir də 1945-ci il aprel ayının 28-də Bakıda gördüm. Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 25 illiyi münasibətilə Bakıda keçiriləcək bayram şənliklərində iştirak etmək üçün Tehrandan və Təbrizdən qonaqlar dəvət olunmuşdu. Onların içərisində 5 nəfər də şair var idi: Məhəmməd Biriya, Əli Fitrət, Mir Mehdi Cavuşi, Quluxan Borçalı və Azəroğlu.

Qonaqlar xüsusi qatarla aprel ayının 27-də Təbrizdən yola düşdülər. Axşamüstü qatar Culfa körpüsünü keçəndə demək olar ki, qatardakıların hamısı vaqonun pəncərəsindən bulana-bulana axan Araza tamaşa edirdi. Bu zaman ən qədim xalq mahnısı - "Köşkü balaban" yada düşdü, gözləri dolmuş şair Fitrət həmin mahnını uca səslə oxudu:

*Köşkü balaban Araza baxar,*
*Arazın suyu gözlərdərı axar...*

Həsrət dolu bu mahnının təsiri altında hamı susdu, elə bil hər kəs öz qəlbində Arazla danışırdı... Mənimsə Təbrizdən çıxanda Bakıda tanış küçələri, ayrılıb getdiyim məktəbli dostlarımı, müəllimlərimi görmək sevincimə Fitrətin oxuduğu "Köşkü balaban" kədəri qarışmışdı.

Qatarımız aprelin 28-də, günorta vaxtı Bakıya çatdı. Bakılılar bizi orkestr və gül dəstələri ilə qarşıladılar. Vağzalda mitinq oldu, qonaqlar adından nümayəndə heyətinin başçısı, qocaman şair Səfvət danışdı. Sonra qonaqları maşınlarla Bakıda təzə tikilmiş "İnturist" mehmanxanasına apardılar. Mən Fitrətlə bir otaqda qalmalı oldum. Bir qədər şonra qapımız döyüldü, Mirzə Ibrahimovla Sərnəd Vurğun içəri daxil oldular. Mirzə əvvəlcə Əli Fitrəti, sonra məni Səmədə təqdim etdi. Səməd adımı eşidən kimi əlimi əlində saxlayıb gülə-gülə dedi:

- Mən elə bilirdim sən də saçı-saqqalı ağartmısan? Sən ki, cavansan, - dedi. Sonra şeirlərimi oxuduğunu, çox xoşuna gəldiyini dedi. Tabriz şairlərindən fərqli olaraq ərəb, fars sözləri işlətmədiyimi xüsusi qeyd etdi. Gedəndə gülə-gülə dedi:

- Mən burda, sən Cənubda Azərbaycan şeirini yüksəklərə qaldırmalıyıq.

- Əlbəttə, bu zarafat idi.

Nahar zamanı Səməd Vurğun məni çağırıb öz yanında oturtdu ki, cənubluların fars dilində çıxışlarını ona tərcümə edim, ancaq belə olmadı. Qonaqlardan Səfvət və Seyid Cəfər Pişəvəri Azərbaycan dilində, təkcə Məlikül-Şəa Bahar fars dilində danışdı, onu özünün xahişinə görə Pişəvəri tərcümə etdi. ...Şeir qurtaran kimi hamı S.Vurğuna baxdı, çünki Səməddən cavab gözləyirdilər. Səməd ayağa qalxıb ağayi Bahara təşəkkür edəndən sonra ona şeirlə cavab verdi. Şerin məzmunu təqribən belə idi; Qızıl ordunun qələi labüd idi, çünki o, həm qəhrəman, həm də xilaskar ordudur.

Bayram şənlikləri 10 gün davam etdi, qonaqlar Bakıdan böyük təəssüratla Vətənə qayıdırdı. Mənimsə içimdə yenidən ayrılıq, həsrət hissi baş qaldırmışdı... Sahil boyu şütüyən qatarın pəncərəsindən gözümü sahil boyu axan Arazdan çəkə bilmirdim. İçimdə gələcəkdə yazacağım "Bakı safari"poemasının misraları yaranırdı.

1948-ci ildə həmişəlik Bakıya gəldim. Bakıda olduğum zaman Mirzə müəllimlə tez-tez görüşürdük. O, həmişə Yazıçılar ittifaqına gələndə məni, Əli Tudəni, Mədinə Gülgünü, Hökümə Büllurini çağırıb görüşür, yaşayışımız, dərslərimiz ilə maraqlanırdı.

Mən universiteti qurtarandan sonra dissertasiya müdafiə edib filologiya elmləri namizədi adı aldım. Bu o zaman idi ki, Mirzə ibrahimov Akademiyanın Ədəbiyyat institutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin rəhbəri idi. Mən elmi işimi davam etdirmək üçün o şöbəyə getdim və bir il də orada elmi fəaliyyətimi davam etdirdim...

1981-ci ildə Azərbaycan yazıçılarının qurultayında Mirzə müəllim Yazıçılar ittifaqının sədri və beş nəfər katib seçildi. Katiblikdə mənə Cənubi Azərbaycan ilə əlaqə şöbəsi tapşırıldı. Bu o zaman idi ki, İranda 1979-cu il inqilabı qələbə çalmışdı, şahlıq üsulu süqut etmişdi, nisbətən azadlıq yaranmışdı. Cənubi

Azərbaycanda ana dilində mətbuata imkan yaranmışdı. Bakı ilə Təbrizin arasında mətbuat mübadiləsi başlanmışdı. Bu işə Mirzə müəllim şəxsən rəhbərlik edirdi. O, "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" və "Bakı" axşam qəzetində Cənubda çıxan kitabların təbliği ilə əlaqədar məqalələr çap etdirirdi. Onun başladığı bu xeyirxah işə Azərbaycanın görkəmli alimlərindən Həmid Araslı, Mirzəağa Quluzadə, Məmməd Cəfər, Abbas Zamanov da qoşulmuşdu.

Mirzə ibrahimovun yaradıcılığında da Cənubi Azərbaycanda gedən milli-azadlıq hərəkatı görkəmli yer tutur. Xüsusilə onun "Gələcək gün", "Tonqal başında", "Fədailər", "Qarı iman gətirdi" kimi bədii əsərləri Cənubi Azərbaycanda gedən azadlıq hərəkatının bədii inikasıdır.

Mirzə ibrahimov sözün həqiqi mənasında ensiklopedik bir yazıçı idi. O, istər bədii əsərlərində, istərsə də nəzəri-tənqidi məqalələrində dövrün ən mühüm hadisələrindən danışmış və hadisələri müasirlik baxımından qiymətləndirmişdir.

Bu, bir həqiqətdir ki, Mirzə İbrahimov xalqımızın tarixində XX əsrin ən böyük yazıçılarından biri kimi qalacaq, gələcək nəsil də onun əsərlərinə dönə-dönə müraciət edəcəkdir.

**Balaş Azəroğlu**